**X.Ə.QOCAYEVA**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
*e-mail: khatira.gocayeva@mail.ru*
**:https://orcid.org/0000-0001-6605-0949**

**Azərbaycan Dillər Universiteti**
(Bakı şəh., R.Behbudov küç., 134)

**10.62021/0026-0028.2025.3.166**

# DİSKURS İNTONASİYASI VƏ ONA MƏXSUS XÜSUSİYYƏTLƏR

***Xülasə.*** *Məqalədə diskursun intonasiya xüsusiyyətləri araşdırılır. Müasir dilçilikdə diskurs və onun intonasiyasının mühüm əhəmiyyət kəsb etdiyi qeyd olunur. Həmçinin diskurs barədə artıq çox tədqiqat aparıldığı, lakin hələ də bu sahənin tədqiqata ehtiyacı olduğu vurğulanır. Qeyd olunur ki, müasir dilçilik elmi diskursu insanın gündəlik həyat təcrübəsinin ən mühüm hissəsi kimi qəbul edir.*
*Məqalədə diskurs anlayışının linqvistika, antropologiya, ədəbiyyatşünaslıq, etnoqrafiya, sosiologiya, sosiolinqvistika, fəlsəfə, psixolinqvistika, koqnitiv psixologiya və bir sıra digər elmlərin kəsişmə nöqtəsində durduğu vurğulanır. Lakin məqalədə iddia edilir ki, müasir dövrdə diskurs nəzəriyyəsi artıq müasir elmin inkişafındakı inteqrasiya meylini əks etdirərək müstəqil fənlərarası sahə kimi formalaşmışdır.*

***Açar sözlər:*** *intonasiya, diskurs, xüsusiyyət, ton, emosional, cümlə*

Müasir dilçilikdə diskurs və onunla əlaqədar problemlər çox aktualdır. Bir çox tədqiqatçılar diskurs, onun tarixi, diskursun quruluşu, diskurs təhlili və s. barəda araşdırmalar aparmışlar. Müasir dilçilik elmi diskursu insanın gündəlik həyat təcrübəsinin ən mühüm hissəsi kimi qəbul edir [1, s.12]. Bundan başqa, müasir dilçilik onu mətindən başqa mətni anlamaq üçün vacib olan dünya haqqında bilikləri, rəyləri, adresatın məqsəd və hədəflərini özündə əks etdirən mürəkkəb kommunikativ hadisə olaraq müəyyənləşdirir [1, s.12].

Diskurs anlayışı linqvistika, antropologiya, ədəbiyyatşünaslıq, etnoqrafiya, sosiologiya, sosiolinqvistika, fəlsəfə, psixolinqvistika, koqnitiv psixologiya və bir sıra digər elmlərin kəsişmə nöqtəsində durur. Amma aparılan tədqiqatlara əsasən bu fikrə gəlmək olar ki, müasir dövrdə diskurs nəzəriyyəsi müasir elmin inkişafındakı inteqrasiya meylini əks etdirərək müstəqil fənlərarası sahə kimi formalaşmaqdadır.

Diskursun öyrənilməsi zamanı onun növlərinin müəyyənləşməsi həmişə ön planda durmuşdur. Bu sahədə aparılan tədqiqatlar nəticəsində diskursun iki əsas növü – şifahı və yazılı diskurslar fərqləndirilir [3]. Bu fərqlənmə informasiyanın ötürülməsi ilə bağlıdır. Belə ki, şifahi diskurs zamanı ötürülmə kanalı hava dalğaları ilə yayılan səs, yəni akustik, yazılı diskurs zamanı isə vizual-qrafik xarakterli olur. Şifahi diskursda natamamlıq müşahidə olunur. Belə ki, danışıq təkrarlarla davam edir, bir-birindən fasilələrlə ayrılan intonasiya vahidləri ilə qurulur, qismən bitkin intonasiya konturlarına malik olur və adətən, sadə preduksiya və sintaqmlardan ibarət olur [3]. Diskursun bu növündə danışanla adresatın eyni danışıq mühitinə cəlb edilməsi müşahidə edilir. Bu zaman o, emosiyaların istinad edilməsi, jestlərdən və digər verbal vasitələrdən istifadə olunması ilə səciyyələnir [1, s. 14].

Şifahi diskursdan danışarkən diskurs intonasiyasına toxunmaq yerinə düşərdi. Məlumdur ki, intonasiya danışanın tələfffüz etdiyi müxtəlif tonlu, tembrli və güclü səslərin qanunauyğun ardıcıllığı olan fonoloji bir vasitədir. Onun köməyi ilə sözlər və söz birləşmələri bütöv fikrə çevrilir və dinləyən tərəfindən bütöv bir fikir kimi dərk edilir [2, s. 264]. Belə olduğu halda həyatımızın hər sahəsində rast gəldiyimiz diskursda intonasiyanın rolunun danılmaz ol-

duğu meydana çıxır. Diskurs intonasiyası danışanla dinləyənin dediklərinin bir-birilə əlaqəsini, o cümlədən bütünlükdə diskursla əlaqəsini göstərir. Bundan başqa, bütün intonasiya seçimləri istifadə olunduqları kontekstdə bir-birilə bağlı olurlar.

Bəs diskurs intonasiyası nə deməkdir və onun tədqiqi tarixi nə vaxtdan başlanıb?

Diskurs intonasiyasının tədqiqi tarixi ötən əsrin 70-80 illərində D.Breyzil, S.Con və K.Malkolun adları ilə bağlıdır [6]. Onlar ingilis dilinin tədrisində diskursun intonasiyasına xüsusi önəm verirdilər. Diskurs intonasiyası (Dİ) həm dil öyrənmədə, həm də tədris prosesində mühüm yer tutur. Müasir dövrdə bu meyil getdikcə inkişaf edir və Dİ akademik tədqiqat sahəsi kimi tədqiq olunmağa başlayır [4].

Araşdırmalardan məlum olur ki, Dİ qrammatikada deyil, yanaşmada deyil, əsasən funksiyada araşdırılmalıdır. İntonasiyanın çoxmənalılığı ünsiyyətin çoxşaxəli aspektlərində üzə çıxır və bu da özünü interaktiv diskursa müvafiq əlaqə şəklində göstərir [4]. Danışanın intonasiya seçimi linqvistik məlumatlarla yanaşı, müxtəlif emosiya çalarlıqlarını da ifadə etməlidir. D.Kristal intonasiyanın altı növünü müəyyənləşdirmişdir:

1. Emosional (emotional);
2. Qrammatik (grammatical);
3. İnformasiya xarakterli (informational);
4. Mətnə uyğun (textual);
5. Psixoliji ( psychological);
6. İndeksikal (indexical) [5, s. 249].

D.Kristaldan fərqli olaraq, P.Rouç isə intonasiyanın 4 növünü müəyyənləşdirmişdir:

1. Münasibət xarakterli intonasiya (attitudinal);
2. Vurğu intonasiyası (accentual);
3. Qrammatik (grammatical);
4. Diskurs intonasiyası (discourse) [6, s. 163].

Aparılan tədqiqatları araşdırarkən belə nəticəyə gəlmək olar ki, intonasiyaya cümləni təşkil edən səslərin akustik zəncirini tərkib hissələrinə parçalayan vasitə kimi yanaşmaq olar [2, s.264]. Bu halda intonasiyanın emotiv və intellektual tərəfinin şərhini versək, bu qənaətə gələrik ki, intonasiyanın emotiv tədqiqində məlumatın ekspressivliyi, emosional çalarlığı, danışanın qeyri-verbal və fonoloji üslubiyyat imkanlarının hansından istifadə etməsi, habelə ekstralinqvistik cəhətlərin nə dərəcədə intonasiya vasitələri ilə verilməsindən bəhs edilir. İntellektual baxım isə məlumatın linqvistik tərəfini, onun informativliyini öyrənir [2, s.264]. Hər hansı bir məlumatı vermək üçün danışanın hansı hissləri keçirdiyinin bilmək heç də vacib deyil. Buna görə də F.Veysəlli hesab edir ki, emotiv və intellektual aspektlərin bir-birindən təcrid olunmuş şəkildə öyrənilməsi vacibdir. Bundan əlavə, F.Veysəlli yuxarıda qeyd etdiyimiz dilçilərin intonasiya funksiyaları barədə verdikləri bölgünün əksinə olaraq, intonasiyanın iki funksiyasını müəyyənləşdirmişdir [2, s.265]. O, qeyd edir ki, intonasiyanın cümləni təşkil etməsi onun xarici funksiyasına, cümləni tərkib hissələrinə bölməsi isə cümlədaxili funksiyasına aiddir. Real danışıqda isə iki tərəf vəhdət şəklində çıxış edir və onların ayrılması o qədər də asan deyil [2, s.265].

Qeyd edək ki, digər dilçilərin də intonasiyanın funksiyaları barədə öz bölgüləri vardır. Beləliklə, bu bölgülərə əsaslanaraq intonasiya funksiyasını dörd qrupda cəmləşdirə bilərik:

1. Linqvistik formaya əsaslanan; bura qrammatik (*ümumi* və *xüsusi suallarda* istifadə olunana intonasiya) və yaxud leksik ( *doğurdanmı, tamamilə* və s. kimi modal sözlərin intonasiyası) intonasiya daxildir.

2. Münasibət xarakterli və yaxud şəxslərarası; bura *maraq, nəzakət, inamsızlıq* və s. Kimi cümlələrdə istifadə olunan intonasiya daxildir.

3. Vurğu intonasiyası; bu növ əsasən *ziddiyətli fikirləri bildirən* cümlələr istifadə olunur.

4. Danışıqda və yaxud şəxslərarası ünsiyyətdə istifadə olunan intonasiya; bu növ əsasən *xahiş, razılıq bildidirən* cümlələrdə istifadə olunur [7, s.4].

Diskursun intonasiya sistemində istənilən seçimi etməklə danışan həmin andakı məqsədə çatmaq üçün nəyi öz üzərinə götürdüyünə işarə edir və özü (danışan) ilə eşidən (dinləyən) arasında başadüşmə vəziyyəti yaranır [4]. Danışanlar özlərinin anlamalarına uyğun olaraq intonasiya seçimini edirlər və onu dinləyənlərlə paylaşırlar. Bu, danışanlarla dinləyənlər arasında bərabər paylaşdıqları mövzu ilə və yaxud xüsusi bir kontekstə uyğun olan danışıqların məqsədində özünü büruzə verir. Sitaksis və intonasiyanın məqsədyönlü danışıqda əlaqələri olmasına baxmayaraq, onlar intonasiya seçiminin ayrılıqda nəzərdə tutulan sahələri hesab olunur [4]. Ümumiyyətlə, burada qeyd etmək yerinə düşər ki, intonasiya ilə sintaksisin sıx əlaqəsi danılmazdır. Sintaksis və intonasiya ayrı-ayrı elm sahələri olmalarına baxmayaraq, onlarda ifadə olunan Dİ ton birləşmələrinin (tone units) və budaq cümlələrin (clauses) arasında normal əlaqə olduğunu əks etdirir. Amma bununla bərabər intonasiyanın tədqiqi fonologiyanın işləyib hazırladığı metodlarla mümkündür [2, s. 266].

D.Breyzil Dİ-nın danışanın kontekstə uyğun olaraq öz səsinin axınının anbaan izləməli olduğunu iddia edir. Bu alimə görə Dİ-na müvafiq olaraq danışanın seçimində 4 element əksini tapır. Onlar aşağıdakılardır:

a) Zirvə (prominence);
b) Ton (tone);
c) Açar (key);
d) Bitkinlik (termination) [4].

Bu elementlərin hər biri danışanla dinləyən arasındakı diskursda mənanın güclənməsinə səbəb olur. Dİ danışıq aktının əsas hissəsinin sintaqmlara böləndüyünü və bu sintaqmların bir, yaxud iki zirvə olduğunun göstərir. İki zirvədə ton birləşməsi (bəzən "maksimal" birləşmə kimi də adlandırılır) Dİ üçün səciyyəvi bir haldır. Birinci zirvə qeyri-tonik, ikinci zirvə isə tonikdir. İntonasiyanın digər növlərindən fərqli olaraq, Dİ mətnin sərhədlərinin müəyyən edilməsində çoxmənalılıq ifadə etmir. Bir ton birləşməsi digər ton birləşməsinin arasında qurtarır.

Danışan beş ton arasında seçim edir. Onlar aşağıdakılardır:

*enən, qalxıb-enən*, *qalxma, enib-qalxan* və *eyni səviyyədə* olan tonlar. Bu tonların istifadəsini /1en/ "then" /onda/ o ərəfələrdə// sözü üzərində nümayiş etdirək:

/it w7z 7'ra-nd 1en//
enən // ↓ it was around THEN// (Bu, o ərəfələrdə idi)



/it w7z 7'ra-nd 1en//
düz //→ it was around THEN// (Bu o ərəfələrdə idi)

/it w7z 7'ra-nd 1en//
qalxan //↑ it was around THEN // (Bu o ərəfələrdə idi)



/it w7z 7'ra-nd 1en//
enən-qalxan // ↓↑ it was around THEN// (Bu o ərəfələrdə idi)



/it w7z 7'ra-nd 1en//
qalxan-enən ↑↓ it was around THEN// (Bu o ərəfələrdə idi)



Enən, qalxıb-enmə mənanın güclənməsinə səbəb olan tonlardır. Onları "bəyanat tonları" da adlandırırlar [5].

Qalxma və enmə-qalxma tonları (onları "istinad tonları" [reffering tones] da adlandırırlar) da mənanı qüvvətləndirmək üçün istifadə olunur [5]. Düz tonlar isə yuxarıda qeyd etdiyimiz iki tondan kənarda qalır. Belə ki, bu ton şəxslərarası interaktivlikdən daha çox danışanın ifadə etdiyi hər hansı bir sözün üstündə dayanır [5].

Digər iki ton açar və bitkinlik tonları danışanın nəzərəçarpan hecaları əvvəlki zirvə ilə aşağı, orta və yuxarı səviyyələrdə deyilməsində intonasiya seçimi ilə bağlıdır. Burada əks olunan aşağı açar mənanı gücləndirir və onunla əvvəl deyilənlər arasında danılmaz əlaqə olduğunun göstərir. Açarı "diskurs-ilki" (discourse-initial), nəticəni isə "diskurs-sonu" (discourse-final) adlandırırlar [4]. Aşağıdakı nümunədə "No"[ n7-] //xeyr// sözü üzərində dediklərimizi nümayiş etdirək.

/its n7- m6: 'disp7r7t//

IT'S //→↑NO more DISparate// (Bu artıq ümidsizlik deyil)



/its n7- m6: 'disp7r7t//

IT'S //→ NO more DISparate // (Bu artıq ümidsizlik deyil)



/its n7- m6: 'disp7r7t//

IT'S // →↓ NO more DISparate // (Bu artıq ümidsizlik deyil)



Bu nümunələrin sayını artıra bilərik. Göründüyü kimi, Dİ əsasən mövzu ilə, xüsusilə də danışıq aktlarının ifadəsində intonasiya bölgüsünü, diskurs birləşmələri ilə intonasiya nümunələri arasındakı əlaqələri ifadə etməkdə böyük rol oynayır. Bundan başqa, Dİ intonasiya nümunələrinin ötürmədə enən və qalxma tonlarında baş verən dəyişikliklərin ünsiyyət dəyərlərinə necə təsir etdiyini də özündə əks etdirir.

Digər nümunə:

/Not that I loved Caesar less, but that I loved Rome more// [n6t 15t a9 l0vd 's9:z7 les/ b0t 15t a9 l0vd ro-m m6:] /Mən Sezarı az sevmirdim, lakin Romanı daha çox sevirdim// diskursu ikisintaqmlıdır. Sintaqmlar arasında orta nisbi ton tezliyi I diktorda 109-89 hs, II diktorda isə 112-84 hs-dir.

Ám5d w7:ld Ám5d k92sz m5d Ák6mp7'z937n diskursunda qiymətlərin müqayisəsi minimum intensivliyin terminal sintaqma aid olduğunu göstərir. I diktorun tələffüzündə orta nisbi intensivlik qiyməti 108-106-94 db, II diktorda isə 104-102-96 db-dir.

Diskurs da nisbi mənada mətn olduğu üçün onun təhlilində intonasiyadan və prosodiyadan yan keçmək düzgün olmazdı.

Sintaqm bir neçə ritmik qrupdan ibarət ola bildiyi kimi, bir ritmik qrupdan da ibarət ola bilər. Sintaqmın əsas götürülməsi ritmik qruplar ideyasını inkar etmir. Sadəcə olaraq, bunlar ayrı-ayrı məktəblərin irəli sürdüyü üzvlənmə vahididir. Fikrimizcə, sintaqm daha münasib üzvlənmə vahidi olduğu üçün bütün dillərin, o cümlədən ingilis dilinin prosodiya və intonasiya xüsusiyyətlərinin təhlilində ondan istifadə olunması yaxşı nəticə verə bilər.

Müasir dövrdə xarici dilin öyrədilməsində diskurs intonasiyasının rolu danılmazdır. İntonasiyanın öyrədilməsi dil daşıyıcılarına asan görünsə də, xarici dili öyrənənlər üçün bu, çox çətindir. Xarici dili öyrənən hər kəs təbii dil daşıyıcısını başa düşməkdə çətinlik çəkir. Bu sahədə diskurs intonasiyası özünün kommunikativ dəyərləri ilə hər bir dil öyrənənə ingilis dilini başa düşməkdə yardımçı ola bilər.

***Elmi yeniliyi.*** Bu məqalədə diskurs intonasiyasının və ona məxsus xüsusiyyətlərin araşdırılmasına ilkin olaraq cəhd göstərilib.

***Tətbiqi əhəmiyyəti.*** Tədqiqatdan ingilis dilinin intonasiyasına dair aparılan araşdırmalarda, tədqiqat işlərində və diskursun intonativ təhlilində istifadə edilə bilər.

***Elmi nəticəsi.*** Məqalənin elmi nəticəsi olaraq müasir dövrdə diskurs intonasiyasının rolunun əhəmiyyəti təsdiq olunur. İntonasiyanın öyrədilməsinin müsbət tərəflərinin aydın şəkildə izahı verilir, həmçinin ingilis dilinin prosodiya və intonasiya xüsusiyyətləri müəyyən edilir.

**Ədəbiyyat**


1. Zeynalov, F. Practical English Phonetics. Book 1 / F.Zeynalov, – Baku: Mutarjim, – 2019, – 276 p.
2. Babayev, S. English Phonetics . A text-book for the students of language universities and faculties / S.Babayev, – Baku: Elm və Təhsil, – 2009, – 316 p.
3. Roach, P. English phonetics and phonology. A practical course / P.Roach, – Edinburgh: Cambridge University Press, – 2000, – 283 p.
4. Crystal, D. Prosodic Systems and Intonation in English / D.Crystal, – Cambridge: Cambridge University Press, – 1969, – 381 p.
5. Вейсалли, Ф.Я., Тарасова, Д.В. Проблема дискурса в современном лингвистике. Azərbaycanda xarici dillər // – Bakı, №2/2007.
6. Veysəlli, F.Y. Seçilmiş əsərlər / F.Y.Veysəlli, – Bakı: Mütərcim, – 2009.
7. Карасик, В.И. О типах дискурса // Языковая личность: институциональный и персональный дискурс: Сб. научных трудов.
8. Brazil, D. Discourse intonation and language teaching / D.Brazil, M.Coulthard, C.Johns. – Harlow: Longman, – 1980.
9. Crystal, D. The Cambridge Encyclopedia of the English Language / D.Crystal, – Cambridge University Press, – 1995.
10. Roach, P. English Phonetic and Phonology: a practical course / P.Roach, – Cambridge University Press, – 1991.
11. Thompson, S. Teaching Intonation on Questions. “ELT Journal 49(3): 255-245, – 1995.
12. Brazil, D. The Communicative Value of Intonation in English. [1st Edition]. Discourse Analysis Monograph №8. Birmingham: English Language Research, – The University of Birmingham, – 1985.
13. Abdullayev, K. Azərbaycan dili sintaksisinin nəzəri problemləri / K.Abdullayev, – Bakı, Maarif, – 1998.


**Kh.A.Gojayeva**

**Discourse Intonation and its Specific Features**

***Summary***


The article deals with the intonation features of discourse. It notes that discourse and its intonation have acquired an important humanistic significance in modern linguistics. The article emphasizes that much research has already been conducted on discourse, but this area still needs research. The article writes that modern linguistics considers discourse to be the most important part of human daily life experience.

The article highlights that the concept of discourse stands at the intersection of linguistics, anthropology, literary studies, ethnography, sociology, sociolinguistics, philosophy, psycholinguistics, cognitive psychology and a number of other sciences. However, the article claims that in modern times, discourse theory has already formed as an independent interdisciplinary field, reflecting the integration trend in the development of modern science.


***Keywords:*** *intonation, discourse, feature, tone, emotional, sentence*

**Х.А.Годжаева**

**Интонация дискурса и ее специфика**

***Резюме***


В статье рассматриваются интонационные особенности дискурса. Отмечается, что дискурс и его интонация приобрели важное гуманистическое значение в современной лингвистике. В ста-

тье подчеркивается, что по дискурсу уже проведено много исследований, но эта область еще нуждается в исследовании. В статье пишется, что современная лингвистика считает дискурс важнейшей частью повседневного жизненного опыта человека.

В статье подчеркивается, что понятие дискурса находится на стыке лингвистики, антропологии, литературоведения, этнографии, социологии, социолингвистики, философии, психолингвистики, когнитивной психологии и ряда других наук. Однако в статье утверждается, что в Новое время теория дискурса уже сформировалась как самостоятельное междисциплинарное направление, отражающее интеграционную тенденцию в развитии современной науки.

***Ключевые слова:*** *интонация, дискурс, особенность, тон, эмоциональность, предложение*

*Rəyçi: filol.f.d., dos. S.B.Mustafayeva*

*Redaksiyaya daxil olub: 28.07.2025*